

# Regionlar iqtisadi güc amilinə çevrilir

## Prezident İlham Əliyevin bölgələrin inkişafı ilə bağlı siyasəti uğurlu nəticələr verir

İyulun 10-da Nazirlər Kabinetinin 2016-cı ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında Prezident İlham Əliyev 6 ay ərzində ölkəmizdə həyata keçirilən işlər və əsas prioritet istiqamətlərlə bağlı mühüm məqamlara toxundu. Dövlət başçısı ölkədə sənayenin inkişafı, kənd təsərrüfatında artımın olması, ərzaq təhlükəsizliyinin təmin olunması ilə bağlı planlarını açıqladı.

Prezident regionların sosial-iqtisadi inkişafı ilə bağlı həyata keçirilən layihələr barədə məlumat verərkən vurğuladı ki, Azərbaycan böhran şəraitində inkişaf edir və hər bir sahədə konkret proqramlar var. Ötən altı ayın nəticələri isə göstərir ki, Azərbaycan 2016-cı ili də uğurla başa vuracaq: "2016-cı ilin birinci yarısının iqtisadi göstəriciləri də çox ümidvericidir. Bir daha qeyd etmək istəyirəm ki, qeyri-neft sənayemiz 2,4 faiz, kənd təsərrüfatı isə 3,1 faiz artıb. Ancaq əminəm ki, xüsusilə kənd təsərrüfatı istehsalı ilin sonuna qədər daha da artacaq" deyən dövlət başçısı sənaye istehsalı ilə bağlı həm iri layihələrin icra edildiyini, həm də orta və kiçik sahibkarlığın inkişafının sənaye potensialını daha da gücləndirəcəyini söylədi. Bildirdi ki, sahibkarlığın inkişafına dövlət bundan sonra da öz dəstəyini verəcək. Bu il sahibkarlar güzəştli şərtlərlə 73 milyon manat kredit götürüblər. Bu vəsaitin 77 faizi əvvəlcə verilmiş kreditlərin qaytarılması hesabınadır. Bu da çox müsbət haldır. Çünki dövlət büdcəsinə daha az yük düşür və kreditlərin 80 faizi aqrar sektora, ümumilikdə isə 74 faizi regionlara verilir. Regional inkişaf proqramının icrası sürətlə davam etdirilir.

2016-cı ilin dərin iqtisadi islahatlar ili olacağını deyən ölkə rəhbəri bu islahatların yalnız insanların rifah halının yaxşılaşdırılması üçün həyata keçirildiyini bildirdi. Eyni zamanda qeyd etdi ki, Bakı Cənubi Qafqazın ən böyük sənaye şəhəridir və Azərbaycanın hər bir rayonunda sənaye potensialının inkişafı üçün imkanlar var. Bu səbəbdən də ölkəmizdə bir neçə sənaye mərkəzi yaradılmalıdır. Çünki sənaye potensialımızın inkişafı əsas prioritet məsələlərdən biridir. Qarşıdakı dövrdə bu sahəyə diqqət göstəriləcək. Ölkədə yeni sənaye mərkəzləri yaradılacaq və bu ilin sonuna qədər artıq birinci müəssisənin təməl daşının qoyulması planlaşdırılır.

Genişmiqyaslı dövlət proqramlarının həyata keçirilməsi regionlarda istehsal və sosial infrastruktur obyektlərinin yaranması, yeni iş yerlərinin açılması ilə nəticələnir. Dövlət başçısının bölgələrə səfərləri çərçivəsində müxtəlif təyinatlı infrastruktur obyektlərinin açılış və təməlqoyma mərasimlərində iştirakı, müəssisələrin fəaliyyəti ilə yaxından tanış olması, eləcə də ictimaiyyətlə keçirdiyi görüşlərdə qaldırılmış məsələlərin həlli məqsədilə vəsaitin ayrılması regionların inkişafına göstərdiyi diqqətin bariz nümunəsidir.

Prezident İlham Əliyev son 6 ayda Tovuz, Gəncə, Ağsu, Ağdam, Bərdə və Tərtər rayonlarına səfər edərək yeni obyektlərin açılışında, təməlqoyma mərasimində iştirak edib, sakinlərlə görüşüb və müvafiq strukturlara öz tapşırıqlarını verib. Regionlarda hərtərəfli iqtisadi və sosial inkişafa təkan verən bu tədbirlər ilk növbədə Azərbaycan iqtisadiyyatının gücünü göstərməklə yanaşı, vətəndaşların həyatının yaxşılaşdırılmasına yönələn layihələrin davamlı olmasını nümayiş etdirir.

Dövlət başçısının bu il bölgələrə ilk səfəri Tovuz rayonundan başlayıb. Fevralın 16-da Tovuz şəhərindəki Heydər Əliyev parkında aparılan yenidənqurma işləri ilə tanış olan Prezident rayonda yenidən qurulan Tovuz-Hunanlar-Qaraxanlı-Düz Cırdaxan avtomobil yolunun, Tovuzçay su anbarının, Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa edilən 7 saylı körpələr evi-uşaq bağçasının və Qovlar şəhərindəki Gənclər evinin açılış mərasimində iştirak edib. Fevralın 17-də isə Gəncə şəhərinə səfər edən Prezident öncə hərbi qulluqçular üçün inşa edilən şəhərciyin açılışında iştirak edib və mənzillərdə yaradılmış şəraitlə tanış olub. Eyni zamanda, dövlət başçısı 35/6 kV-luq "Nizami" yarımstansiyasının, Azərbaycan Dövlət Aqrar Universitetinin tələbə yataqxanasının, Mir Cəlal Paşayev adına 39 nömrəli tam orta məktəbin binasının və "Gəncə Avtomobil Zavodu" İstehsalat Birliyinin balansında olan 240 yerlik körpələr evi-uşaq bağçasının açılış mərasiminə qatılıb. Prezident həmçinin "İmamzadə" dini kompleksində, Gəncə Dövlət Filarmoniyasının binasında, Gəncəçay çayı boyunca yaradılan park-bulvar kompleksində, "Gəncə - 2016-cı il Avropa Gənclər paytaxtı" parkında və Abbas Səhhət adına 1 nömrəli şəhər xəstəxanasında aparılan əsaslı təmirdən sonra yaradılan şəraitlə tanış olub. Aprelin 29-da Ağsu rayonuna səfər edən dövlət başçısı rayon mərkəzi xəstəxanasının yeni binasının, Bakı-Şamaxı-Yevlax avtomobil yolunun Muğanlı-Yevlax mənzilinin 115 kilometrlik hissəsinin yenidənqurmadan sonra açılışında iştirak edib.

May ayının 1-də isə Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Ermənistan silahlı qüvvələri ilə təmas xəttində yerləşən Tərtər, Ağdam və Bərdə rayonlarında olublar. Dövlət başçısı əvvəlcə Tərtər rayonundakı "N" saylı hərbi hissəyə baş çəkib. Hərbi hissənin şəxsi heyəti ilə görüşdə Silahlı Qüvvələrin Ali Baş Komandanı aprel ayının əvvəlində Ermənistanın növbəti təxribatı və ordumuzun zəfərindən söz açıb. Ali Baş Komandan təmas xəttində Ermənistan ordusunun törətdiyi təxribatların qarşısını alarkən şücaət göstərmiş döyüşçülərə hədiyyələr təqdim edib.

Daha sonra Prezident İlham Əliyev aprelin 27-dən 28-nə keçən gecə işğalçı Ermənistan ordusu tərəfindən iriçaplı silahlar və artilleriya qurğularından açılmış atəş nəticəsində zərər çəkmiş Tərtər şəhərinin Fikrət Əmirov küçəsində dağılmış evlərə baxıb. Dövlət başçısına məlumat verilib ki, ermənilərin törətdiyi vəhşiliklər nəticəsində Tərtərin yaşayış məntəqələrində 256 evə, 4 məktəbə, 2 həkim məntəqəsinə, 1 uşaq bağçasına ziyan dəyib, 32 ev tamamilə dağıdılıb. Sakinlərlə söhbət zamanı Prezident İlham Əliyev dəymiş ziyanın tezliklə aradan qaldırılacağını bildirib. Dövlət başçısı və xanımı cəbhə xəttinin 200 metrliyində yerləşən Tərtər rayonunun Qapanlı kəndinə də baş çəkib. Düşmənin açdığı atəş nəticəsində bu kənddə 55 evə ziyan dəyib. Onlardan 14-ü tamamilə dağıdılıb. Sakinlərlə söhbət zamanı Prezident İlham Əliyev bildirib ki, Azərbaycan Ordusu döyüş meydanında öz qüdrətini göstərsə də, ermənilər ancaq mülki əhaliyə atəş açırlar.

Ali Baş Komandan Ağdam rayonunun qoşunların təmas xəttində yerləşən Mahrızlı kəndində də mövcud durumla maraqlanıb. Sakinlərlə görüş zamanı Ermənistanın təxribatına Azərbaycan Ordusunun layiqli cavab verdiyini deyən Prezident İlham Əliyev düşmənlə üzbəüz mövqelərdə yerləşən yaşayış məntəqələrinin sakinlərinin fədakarlıqlarını, cəsarətini və torpağa bağlılıqlarını xüsusi vurğulayıb və bunu əsl vətəndaşlıq nümunəsi kimi dəyərləndirib. Eyni zamanda, dağılmış evlərin, sosial obyektlərin tezliklə bərpa olunacağını bildirib. Həmin gün Prezident İlham Əliyev Bərdə şəhərindəki Müalicə-Diaqnostika Mərkəzində düşmənin dinc əhalini hədəfə alması nəticəsində yaralanan Ağdamın Çəmənli və Qaradağlı kəndlərinin sakinlərinə baş çəkib.

Prezident İlham Əliyev Tovuz, Gəncə və Ağsuya səfəri çərçivəsində 11 yeni obyektin açılışında iştirak edib, 4 obyektdə yenidənqurmadan sonrakı vəziyyətlə tanış olub. Ümumiyyətlə, son 6 ayda bölgələrdə yol infrastrukturunun inşası, yenidən qurulması üçün həm Prezidentin Ehtiyat Fondundan, həm də 2016-cı ilin dövlət büdcəsində avtomobil yolları təsərrüfatı üçün nəzərdə tutulmuş vəsaitdən ümumilikdə 41.9 milyon manat vəsait ayrılması ilə bağlı dövlət başçısı bir neçə sərəncam imzalayıb. Nazirlər Kabinetinin iclasında Prezident İlham Əliyev bu məsələyə də toxunaraq vurğulayıb ki, kənd yollarının tikintisi çox sürətlə aparılır. Bu məqsədlər üçün dövlət büdcəsindən 200 milyon manat vəsait ayrılıb.

Altı ay müddətində dövlət başçısının müvafiq sərəncamları ilə regionlarda sosial-iqtisadi layihələrin həyata keçirilməsi üçün 53 milyon manat vəsait ayrılıb. Gəncə şəhərinin "2016-cı il Avropa Gənclər paytaxtı" seçilməsi ilə əlaqədar tədbirlərin keçirilməsini təmin etmək məqsədilə 1 milyon, Gəncə Dövlət Filarmoniyasının tikintisinin davam etdirilməsi məqsədi ilə 5 milyon, Ağsu şəhərində çoxmənzilli binaların əsaslı təmiri, abadlıq-quruculuq işlərinin davam etdirilməsi, habelə şəhərin mənzil fonduna daxil olan 33 çoxmənzilli binanın əsaslı təmiri məqsədi ilə 2 milyon, erməni silahlı qüvvələrinin Ağdam və Tərtər rayonlarını intensiv atəşə tutması nəticəsində mülki əhaliyə dəymiş ziyanın aradan qaldırılması üçün hər birinə 3 milyon manat olmaqla 6 milyon, Sumqayıt şəhərində çoxmənzilli binalarda zəruri təmir işlərinin davam etdirilməsi və şəhər avtomobil yollarının əsaslı təmiri üçün ümumilikdə 38 milyon, Goranboy şəhərində Goranboy Rayon Mərkəzi Xəstəxanasının tikintisinə başlamaq üçün isə 1 milyon manat vəsait ayrılıb.

Son 6 ayda dövlət başçısının bölgələrə səfəri bir daha sübut edir ki, Azərbaycan Prezidenti regionların sosial-iqtisadi inkişafına çox ciddi diqqət yetirir. Onun apardığı siyasi kursun əsasında Azərbaycanın sənayeləşməsi, insanların sosial vəziyyətinin yaxşılaşdırılması dayanır. Artıq uzun müddətdir ki, Azərbaycanın iqtisadi inkişaf mərkəzi paytaxt Bakıdan regionlara keçib. Regionlarda yeni sənaye müəssisələrinin fəaliyyətə başlaması, bankların filiallarının təsis edilməsi, infrastrukturun yaxşılaşdırılması, on minlərlə yeni iş yerlərinin açılması, sənaye məhsullarının istehsalının reallaşması Azərbaycanın nəinki regionda, hətta dünyada cəlbedici ölkəyə çevrilməsinə şərait yaradıb.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*